# Ədliyyə naziri Qəbələdə vətəndaşları qəbul edib

Ölkə Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.

Dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq sentyabrın 20-də Ədliyyə naziri Fikrət Məmmədov Qəbələ Mədəniyyət Mərkəzində Qəbələ, İsmayıllı, Oğuz rayonlarının və digər bölgələrin vətəndaşlarını qəbul edib.

Qəbuldan öncə ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərində abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, ulu öndərin əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbul zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



Səfər çərçivəsində nazir yerli məhkəmə və ədliyyə orqanlarına baş çəkərək, onların fəaliyyəti və iş şəraiti ilə tanış olub, hakimlər və ədliyyə işçiləri ilə müşavirə keçirib. Müşavirədə ədliyyə və məhkəmə fəaliyyətinin dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşdirilməsi ilə bağlı görülən işlərə toxunulub. Ölkə Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyəti vurğulanıb, qarşıda duran vəzifələr müzakirə olunub. Müşavirədə məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin edilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tövsiyə və tapşırıqlar verilib.

«Qəbələ»

# Baş prokuror Qəbələ rayonunda vətəndaşları qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılmaqla vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.



Baş prokuror Zakir Qaralov sentyabrın 13-də Qəbələ rayonunda prokurorluğunun inzibati binasında Qəbələ və Oğuz rayonlarından olan vətəndaşları qəbul etmişdir. Qəbuldan əvvəl Baş prokuror və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək ulu öndərin əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının da iştirak etdiyi qəbulda Baş prokuror bölgədə yaşayan 19 vətəndaşın müraciətini dinləmişdir. Qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Zakir Qaralov Baş Prokurorluğun aidiyyəti qurumlarının rəhbərlərinə müvafiq göstərişlər vermişdir.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapmış, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülmüşdür.

Bölgə sakinlərinin yerlərdə qəbuluna və müraciətlərinə baxılmasına şərait yaradıldığı üçün öz razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə etmişlər.

“Qəbələ”

# FHN-in qurumları arasında keçirilən səmti müəyyən etmə üzrə çempionata yekun vurulub

***Sentyabrın 11-13-də Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin və FHN İşçilərinin Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə Qəbələ rayonunun meşə zolağında nazirliyin qurumları arasında səmti müəyyən etmə üzrə keçirilən çempionata yekun vurulub.***



Yarışın bağlanış mərasimində mərkəzin rəisi, polkovnik Füzuli Musayev, FHN İşçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov çıxış edərək ölkəmizdə keçirilən və böyük marağa səbəb olan bu yarışın əhəmiyyətindən, idmanın inkişafı istiqamətində görülən işlərdən, FHN əməkdaşlarının uğurlarından danışıblar. Qeyd olunub ki, FHN-in qurumları arasında keçirilən səmti müəyyən etmə idman növü üzrə çempionatda nazirliyin müxtəlif qurumlarını təmsil edən 21 komandanın tərkibində 100-ə yaxın idmançı iştirak edib. İki gün davam edən yarışın final mərhələsində nazirliyin qurumlarının əməkdaşları komanda və şəxsi birincilik üzrə bacarıqlarını nümayiş etdiriblər.

Yarışda FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin komandası birinci, Mülki Müdafiə Qoşunlarının komandası ikinci, Xüsusi Riskli Xilasetmə Xidmətinin komandası üçüncü yeri tutub. Qızlar arasında şəxsi yarışlarda Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin əməkdaşı Sevda Verdiyeva birinci, Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşı Fərqanə Saxrayeva ikinci yeri tutublar. Kişilərin yarışında isə Kiçik Həcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin əməkdaşı Mirzə Hüseynzadə birinci, Qarabağ Regional Mərkəzinin əməkdaşı Aqil Məmmədov ikinci, Cənub Regional Mərkəzinin əməkdaşı Abasət Babayev üçüncü yerə çıxıblar.

Sonda qaliblərə kubok, medal, diplom və qiymətli hədiyyələr təqdim olunub.

“Qəbələ”

*Yeni dərs ili, yeni vəzifələr*

# Təhsilin səviyyəsinin yüksəldilməsi əsas məqsəddir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz tərəfindən göstərilən diqqət və qayğı sayəsində ölkəmizdə təhsilin səviyyəsi ildən-ilə yüksəlir. Son beş ildə ölkəmizdə 600 məktəb binası tikilib istifadəyə verilib. On beş ildə tikilən və əsaslı təmir olunan təhsil müəssisələrinin sayı 3 min 200-dən çoxdur. Bu da Azərbaycanda ümumilikdə bir milyondan çox şagirdin təlim şəraitinin əsaslı şəkildə yaxşılaşması deməkdir.***

Dövlət başçısının müntəzəm qayğısı və dəstəyi sayəsində rayonumuzda da təhsil ocaqlarının maddi texniki bazası əsaslı şəkildə möhkəmlənmişdir. Son 16 ildə rayonda 30-a qədər ümumtəhsil məktəb binası tikilmiş və təmir olunmuşdur. Bundan başqa rayonda turizm və otelçilik üzrə tədris mərkəzi, Qəbələ Dövlət Peşə Təhsili mərkəzi üçün müasir binalar tikilib istifadəyə verilmişdir.

Ölkə Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası”nda tədrisin keyfiyyətinin yaxşılaşdırılması üçün müəllim peşəsinin nüfuzunun artırılmasının zəruriliyi xüsusi vurğulanıb. Bunun üçün müəllimlərin fəaliyyətinin stimullaşdırılması davamlı xarakter alıb. Ölkə başçısının müvafiq sərəncamına əsasən müəllimlərin aylıq vəzifə maaşları cari ilin sentyabrın 1-dən orta hesabla 20 faiz artırılıb.

Məktəblərdə yaradılmış şəraitin və müəllimlərə göstərilən qayğının nəticəsidir ki, ötən dərs ilində rayonumuzun təhsil işçiləri növbəti ili uğurla başa vurmuşlar. Belə ki, 2018-2019-cu dərs ilində rayonumuzun tam orta məktəblərini bitirmiş 1137 nəfərdən 802 nəfəri ali məktəblərə qəbul üçün sənəd vermiş, onlardan 485 nəfəri tələbə adını qazanmışdır. Ali məktəblərə qəbul olunmuş keçmiş məzunların 112 nəfəri 500-dən, o cümlədən 35 nəfəri 600-dən yuxarı bal toplamışdır. Ötən dərs ilində rayondakı tam orta məktəb məzunlarından 4 nəfəri qızıl, 1 nəfəri gümüş medalla təltif olunmuşdur. Onların hamısı qəbul imtahanlarında yüksək nəticələr göstərmiş, bir nəfəri Prezident təqaüdünə layiq görülmüşdür.

Ötən dərs ilini uğurla başa vurmuş təhsil işçiləri, şagirdlər və valideynlər yeni dərs ilini bayram əhval-ruhiyyəsində qarşılayıblar. Bu il rayonun 53 tam orta, 12 orta ümumtəhsil və 3 ibtidai məktəbi qapılarını 16 mindən çox şagirdin üzünə açıb. Onların 1200 nəfəri birinci sinif şagirdləridir. Şagirdlərin təhsili və tərbiyəsi ilə 2400 nəfərə yaxın müəllim məşğul olacaqdır.



Sentyabr ayının 16-da rayonun bütün ümumtəhsil məktəbləri bayram libasına bürünmüşdü. Bir neçə aydır ki, səssizliyə qərq olmuş məktəblərdə yenidən şagirdlərin şən səsləri eşidilir.

“Bilik günü” və ilk dərs günü münasibətilə məktəblərdə keçirilən tədbirlərdə iştirak edən rayon icra hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri Birinci vitse-prezident Mehriban xanım Əliyevanın “Bilik günü” münasibətilə şagird və tələbələrə ünvanladığı təbrikini məktəblilərə və müəllimlərə çatdırıblar.

Təbrikdə deyilir:

*“Qoy yeni dərs ili sizə təhsilinizdə böyük uğurlar, maraqlı görüşlər və ixtiralar gətirsin, hər bir məktəbli, tələbə və müəllim üçün uğurlu və məhsuldar olsun”.*

Tədbirlərdə eyni zamanda tədris müəssisələrinin keçən dərs ilindəki fəaliyyətindən, bu dərs ilində qarşıda duran vəzifələrdən danışılıb. Çıxış edən müəllimlər, şagirdlər, valideynlər ölkəmizdə təhsilin səviyyəsinin yüksəldilməsi üçün həyata keçirilən möhtəşəm layihələrə görə ölkə Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

“Qəbələ”